

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 1 noyabr 2023-cü il №83 (2795) https://mod.gov.az Qiyməti 30 qəpik


## Türkiyə Respublikasının Prezidenti Zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana

Hörmətli cənab Prezident,
Əziz Qardaşım.

Əlamətdar tarix - Türkiyə Respublikasının yaranmasının 100-cü ildönümü münasibətilə Sizi və Sizin simanızda qardaş Türkiyə xalqını şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik etməkdən və ən xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

Bir əsr bundan əvvəl Türk dünyasının böyük oğlu, mahir sərkərdə və dahi lider Qazi Mustafa Kamal Atatürk Türkiyə xalqını vahid bir ideal ətrafında birləşdirməyə müvəffəq olmuş, özünün ən möhtəşəm əsəri olan Türkiyə Respublikasını qurmaqla istiqlal mübarizəsini uğurla sona çatdırmışdı. Bu müstəsna gündə Ulu Öndər Atatürkün, onun silahdaşlarının və qəhrəman şəhidlərimizin əziz xatirəsini dərin ehtiramla yad edirik.

İstiqlalına şəhidlərinin canı və qanı bahasına, çox mürəkkəb və ziddiyyətli beynəlxalq vəziyyətdə qovuşan Türkiyə Respublikası yüz il sonra qlobal siyasi xəritədə mühüm mövqeyə malik, dünyada əsas söz sahiblərindən biri olan, hər cəhətdən güclü və qüdrətli dövlətdir. Atatürkün əmanəti olan qardaş Türkiyənin son iyirmi ildə inkişaf tempi, dünya çapında ən öndə duran ordudan tutmuş yüksək texnologiya və innovasiyalara qədər bütün sahələrdə əldə etdiyi möhtəşəm nailiyyətləri, beynəlxalq aləmdə qazandığı etibarı və yüksək nüfuzu Sizin sarsılmaz iradənizin, yorulmaz fəaliyyətinizin və qətiyyətlə həyata keçirdiyiniz müdrik siyasətinizin nəticəsidir. Sizin əzmlə yürütdüyünüz strateji inkişaf xəttinə xalqınızın birmənalı dəstəyi, Sizə olan sonsuz inam və etimadı Türkiyənin gələcək uğurlarını və nailiyyətlərini təmin edəcək ən mühüm amillərdir.

Gündən-günə güclənən, ən qabaqcıl dövlətlərlə bir sırada layiqli yerini tutan müasir Türkiyəni görməkdən qardaş ölkə olaraq böyük qürur və fərəh hissi duyuruq. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamı xalqlarımızın qardaşlığını, birliyini, həmrəyliyini ifadə etməklə yanaşı, ikitərəfli münasibətlərimizin əsl mahiyyətini əks etdirir. Fəxrlə qeyd etmək istəyirəm ki, bu fəlsəfənin sübutu olaraq hazırda Azərbaycan və Türkiyə dünya miqyasında bir-birinə ən yaxın olan ölkələr və müttəfiqlərdir.

Tarixən olduğu kimi, xalqlarımız bu gün də bir-birinin yanındadır, sevincini də, kədərini də birgə yaşayırlar. Azərbaycan xalqı Vətən müharibəsi zamanı və ondan sonrakı dövrdə Siz başda olmaqla qardaş Türkiyə dövləti və xalqının Azərbaycanın haqq işinə, ərazi bütövlüyünə göstərdiyi birmənalı siyasi dəstəyini və qətiyyətli mövqeyini heç zaman unutmayacaq.

Biz Şuşa Bəyannaməsi ilə müttəfiqlik səviyyəsinə yüksələn Azərbaycan-Türkiyə əlaqələrini bundan sonra da bütün sahələrdə gücləndirmək əzmindəyik. Ortaq mənəvi dəyərlər, dini-mədəni köklər kimi sarsılmaz təməllər üzərində qurulmuş dövlətlərarası münasibətlərimiz həm də bölgədə sabitliyin, əmin-amanlığın, inkişafın və təhlükəsizliyin zaminidir.

Əminəm ki, ən böyük sərvətimiz olan Azərbaycan-Türkiyə qardaşlığını və birliyini əbədiyyətədək yaşatmaq və daha da möhkəmləndirmək, hərtərəfli əməkdaşlığımızı inkişaf etdirmək yolunda üzərimizə düşən şərəfli missiyamızı bundan sonra da birgə və uğurla yerinə yetirməyə davam edəcəyik.

Bu tarixi gündə Sizin və qardaş Türkiyə xalqının sevincinə qoşulur, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, ali dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər, Türkiyə Respublikasına daim rifah, firavanlıq və yüksəliş arzulayıram.

Hörmətlə,

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 26 oktyabr 2023-cü il

## Prezident İlham Əliyev Türkiyənin milli bayramı - Respublika Günü münasibətilə paylaşım edib




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının yaranmasının 100-cü ildönümü münasibətilə rəsmi sosial şəbəkə hesablarında paylaşım edib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı Azərbaycan və Türkiyə bayraqlarının əks olunduğu foto paylaşıb.

## Birinci vitse-prezident Mehriban Əliyeva Türkiyənin Cümhuriyyət Günü münasibətilə paylaşım edib

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva 29 Oktyabr - Cümhuriyyət Günü münasibətilə paylaşım edib.

AZƏRTAC xəbər verir ki, bu barədə Birinci vitse-prezident instaqramda paylaşım edib.

"Türkiyə xalqını Cümhuriyyət Bayramı münasibətilə səmimi-qəlbdən təbrik edirəm", - deyə Mehriban xanım Əliyevanın paylaşımında bildirilib.




## Azərbaycanın müdafiə naziri türkiyəli həmkarını və Baş Qərargah rəisini Türkiyənin Cümhuriyyət Bayramı münasibətilə təbrik edib

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü münasibətilə Türkiyə Respublikasının milli müdafiə naziri cənab Yaşar Gülərə və Baş Qərargah rəisi ordu generalı Metin Gürəka təbrik məktubu ünvanlayıb.

Məktubda deyilir: "Sizi, ailənizi və tabeliyinizdə olan şəxsi heyəti Cümhuriyyət Bayramının 100-cü ildönümü münasibətilə ən səmimi diləklərimlə ürəkdən təbrik edir, Sizə cansağlığı, uzun ömür, ailə səadəti, çətin və şərəfli işinizdə müvəffəqiyyət arzulayıram.

Mustafa Kamal Atatürk, silahdaşları və şanlı Türk ordusu ilə birlikdə bir milləti əsarətdən qurtararaq, ardından da yepyeni bir ulus quraraq, 29 oktyabr 1923-cü ildə Türkiyə Respublikasını elan etdi.




1923-cü ildən bəri müstəqillik yolunda Türkiyə Respublikası bütün çətinliklərə mərdliklə sinə gərdi. Müstəqillik uğrunda döyüşlərdə Türk əsgərinin yenilməzliyini, Türk xalqının rəşadətini düşmənlər də öz xatirələrində etiraf ediblər. İstiqlal Savaşında Türkiyə vətəndaşlarının göstərdiyi şücaətlər Türk tarixində qızıl hərflərlə yazılmış, əfsanələr yaratmışdır.

Bir daha Sizi Cümhuriyyət Bayramının 100 ildönümü münasibətilə səmimi-qəlbdən təbrik edir, dövlətçilik və azadlıq uğrunda adını tarixə qızıl hərflərlə yazmış şəhidlərimizin müqəddəs xatirəsini dərin ehtiramla anıram".

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

*Döyüş hazırlığı*

## Torpaqlarımızda həyatın canlanmasına gün keçdikcə daha da yaxınlaşırıq



Məlumdur ki, müharibə və post müharibə dövründə insanlığın üzləşdiyi ən böyük problemlərdən biri mina terrorudur. Müharibəyə və işğala məruz qalan ölkələrin əksəriyyəti ərazilərin minalarla çirklənməsindən əziyyət çəkir. Azərbaycan da bu gün adıçəkilən problemi yaşamaqdadır. Danılmaz faktdır ki, uzun illər torpaqlarımızı işğal altında saxlayan düşmən bu ərazilərimizi saysız-hesabsız müxtəlif təyinatlı minalarla çirkləndirib. Nəticədə 44 günlük haqq savaşımızdan bu günə qədər 300-dən çox vətəndaşımız ermənilər tərəfindən basdırılan minaların partlaması nəticəsində həlak olub. Birinci Qarabağ müharibəsindən bu günə qədər ANAMA tərəfindən qeydə alınan mina terrorunun qurbanlarının sayı isə 3000 nəfərdən çoxdur. Ümumilikdə götürsək, insan həyatına qəsd etmək üçün müxtəlif formalı terror hadisələri ermənı xislətinin əsas göstəricilərindəndir. Bunlardan biri də mina terrorudur ki, düşmən işğalından azad olunan torpaqlarımızda firavan həyatın təmin olunması, o yerlərin doğma sakinlərinin öz evlərinə köçürülməsi və regionda sülhün təmin olunması prossesinə birbaşa maneədir.

(Ardı 6-cı səhifədə)

# Azərbaycanın müdafiə nazirinin Çinə işgüzar səfəri

*Çin Xalq Respublikasında işgüzar səfərdə olan Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov 10-cu Pekin Syanşan Forumunun açılış ziyafətində iştirak edib.*





Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, ziyafət çərçivəsində general-polkovnik Zakir Həsənov Çin Xalq Respublikasının Mərkəzi Hərbi Şurasının sədr müavini general-polkovnik Can Yousia ilə görüşüb.

Görüşdə ölkələrimiz arasında hərbi əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri, həmçinin qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə edilib.

* * *

Çində səfərdə olan Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov 10-cu Pekin Syanşan Forumunun açılış mərasimində iştirak edib.

Mərasimdə "Əsas güc ölkələrinin məsuliyyəti və qlobal təhlükəsizlik əməkdaşlığı" mövzusu üzrə məruzə dinlənilib.

* * *

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Çin Xalq Respublikasına işgüzar səfəri çərçivəsində Azərbaycan Respublikasının Çin Xalq Respublikasındakı Səfirliyini ziyarət edib. Burada Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyularaq xatirəsi dərin ehtiramla yad edilib.

Sonra müdafiə naziri Çinin müdafiə sənayesi kompleksinə daxil olan bir neçə şirkət rəhbərləri ilə görüşüb.

Ölkəmizin Çin Xalq Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Bünyad Hüseynovun da iştirak etdiyi görüşlərdə birgə əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri müzakirə edilib, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

* * *

Çin Xalq Respublikasında işgüzar səfərdə olan Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov bu ölkənin Mərkəzi Hərbi Şurasının sədr müavini general-polkovnik HI Veydon ilə görüşüb.

Görüşdə hərbi, hərbi-texniki, hərbi təhsil və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivləri, eləcə də qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə edilib.















## Xankəndidə "Halo Trust" qeyri-hökumət təşkilatının bazası və yararsız minatəmizləmə avadanlıqları aşkarlanıb



Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) icra etdiyi humanitar minatəmizləmə fəaliyyətləri zamanı Xankəndi şəhəri ərazisində "Halo Trust" qeyri-hökumət təşkilatının bazası aşkarlanıb.

ANAMA-nın mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, beynəlxalq humanitar qeyri-hökumət təşkilatı olan "Halo Trust"a məxsus bazada qəsdən yararsız hala salınmış xeyli sayda minatəmizləmə avadanlıqları, detektorlara rast gəlinib.

Halbuki bu avadanlıqlar humanitar minatəmizləmə əməliyyatlarında istifadə edilə və mina təhlükəsinin aradan qaldırılmasına xidmət edə bilərdi. Lakin təhlükəsiz mühitin yaradılması məqsədilə istifadə üçün nəzərdə tutulan maddi-texniki vasitələr qəsdən məhv edilib.



# Azərbaycan və İtaliya arasında hərbi əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib

*Oktyabrın 31-də müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev ölkəmizdə səfərdə olan İtaliya Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi admiral Cüzeppe Kavo Draqonenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.*





Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə qonaqlar Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən Vətən övladlarının xatirələrini ehtiramla yad ediblər.

Sonra Azərbaycan Ordusunun Baş Qərargahında təntənəli qarşılama mərasimi keçirilib.

İki ölkə ordularının Baş Qərargah rəisləri arasında təkbətək və geniş tərkibdə görüş keçirilib.

General-polkovnik K.Vəliyev italiyalı nümayəndə heyətini salamlayaraq, onlara Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında Vətən müharibəsində qazanılan tarixi qələbə və cari ilin sentyabr ayında Qarabağ bölgəsində həyata keçirilən lokal xarakterli antiterror tədbirlərinin əhəmiyyəti haqqında ətraflı məlumat verib.

Ordu quruculuğu sahəsində aparılan genişmiqyaslı islahatlardan danışan Baş Qərargah rəisi Azərbaycan Ordusunda yeni texnologiyaların tətbiqi və kibertəhlükəsizlik sahəsində görülən işlərin əhəmiyyətini də diqqətə çatdırıb.

Admiral C.K.Draqone, öz növbəsində, göstərilən qonaqpərvərliyə görə təşəkkür edərək hər iki ölkə arasında hərbi əməkdaşlığın genişləndirilməsi üçün geniş imkanların olduğunu bildirib. O, ölkələrimiz arasında münasibətlərin inkişaf etdirilməsində qarşılıqlı səfərlərin vacibliyini qeyd edib.



Görüşdə Azərbaycan və İtaliya arasında strateji tərəfdaşlığa söykənən hərbi əlaqələrin daha da genişləndirilməsinin zəruriliyi xüsusi vurğulanıb.

Tərəflər Azərbaycan və İtaliya arasında hərbi, hərbi-texniki, hərbi-təhsil və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivləri, habelə qarşılıqlı maraq doğuran bir sıra məsələləri müzakirə ediblər.

# Bakıda Türkiyənin milli bayramı münasibətilə rəsmi qəbul təşkil edilib



*Türkiyə Respublikasının yaranmasının 100-cü ildönümü münasibətilə oktyabrın 29-da Bakıda, Heydər Əliyev Mərkəzində rəsmi qəbul təşkil edilib.*

AZƏRTAC xəbər verir ki, rəsmi qəbulda Milli Məclisin sədri Sahibə Qafarova, Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı, Milli Məclis sədrinin müavinləri və parlamentin deputatları, dövlət və hökumət nümayəndələri, xarici ölkələrin Azərbaycandakı səfirləri, ictimaiyyətin təmsilçiləri iştirak ediblər.

Əvvəlcə Türkiyə Respublikasının qurucusu Mustafa Kamal Atatürkün və şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra Azərbaycanın və Türkiyənin Dövlət Himnləri səsləndirilib.

Daha sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın ölkəsinin milli bayramı münasibətilə tədbir iştirakçılarına videomüraciəti dinlənilib.

Türkiyə Cümhuriyyətinin 100 ilik yubileyi münasibətilə təbriklərini çatdıran səfir Cahit Bağçı bildirib ki, məzlumların, haqqı tapdalananların yanında olan Türkiyə ötən müddət ərzində daha da güclənərək beynəlxalq aləmdə sabitliyin və təhlükəsizliyin simvoluna çevrilib.

Ölkəsinin inkişaf yolundan danışan diplomat Türkiyənin dünyada söz sahibi və ən güclü ordularından birinə malik olduğunu bildirib. O, ölkəsinin bundan sonra daha da güclənəcəyini vurğulayıb.

Türkiyə-Azərbaycan dostluğundan və qardaşlığından danışan diplomat bir yerdə addımlayan ölkələrimizin qarşıdakı yeni hədəflərə doğru inamla irəlilədiklərini qeyd edib.

Səfir bildirib ki, Türkiyə 44 günlük Vətən müharibəsində olduğu kimi, azad edilmiş ərazilərdə aparılan bərpa və quruculuq işlərində, infrastrukturun qurulmasında da qardaş Azərbaycanın yanındadır. O qeyd edib: "Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dediyi kimi, Azərbaycanın gələcəyi gələcəyimiz, sevinci sevincimiz, taleyi taleyimiz, kədəri kədərimizdir".

Ölkələrimiz arasında ticari dövriyyəsinin 5 milyard dollardan çox olduğunu diqqətə çatdıran Cahit Bağçı əminliklə vurğulayıb ki, Türkiyənin yeni 100 ili sülh, sabitlik, inkişaf, həmrəylik əsri olacaq.

Qəbulda çıxış edən Milli Məclisin sədri Sahibə Qafarova Türkiyə Respublikasının yaranmasının 100 illiyi münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevin səmimi təbriklərini və ən xoş arzularını çatdırıb.

O, bildirib ki, 100 il əvvəl Qazi Mustafa Kamal Atatürkün rəhbərliyi ilə Qurtuluş savaşının qazanılması və Türkiyə Cümhuriyyətinin qurulması XX əsr dünya tarixinin ən önəmli hadisələrindən biri olub.

Siyasətini dünyəvilik, demokratiya və millətçilik kimi təməl prinsiplər əsasında quran Türkiyə son 20 ildə böyük siyasi və dövlət xadimi, Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə möhtəşəm uğurlara imza atıb.

Milli Məclisin sədri qeyd edib ki, Türkiyənin beynəlxalq təsisatlarda yaxından iştirakı onu sülh və sabitlik uğrunda çıxış edən qlobal oyunçuya çevirib. Haqq-ədalət və dürüstlük meyarları üzərində qurulan Türkiyə diplomatiyası ixtilafların yoluna qoyulmasında, dialoqun inkişafında və sülh təşəbbüslərinin irəli aparılmasında söz sahibidir.

Milli Məclisin sədri "Türkiyə yüz ili" konsepsiyasının yeni əsrdə Türkiyəyə daha böyük nailiyyətlər qazandıracağından əminliyini ifadə edib.

Vurğulanıb ki, bu gün Azərbaycanla Türkiyənin birgə səyləri ilə nəinki Cənubi Qafqazın, həm də daha geniş bir bölgənin geosiyasi mənzərəsini dəyişən layihələr planlı şəkildə və əzmlə həyata keçirilir.



Xalqlarımızın və dövlətlərimizin qardaşlığının və dostluğunun ən böyük sərvətimiz olduğunu vurğulayan S.Qafarova deyib: "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi, "Türkiyə və Azərbaycan iki qardaş ölkə kimi hər zaman bir-birinin yanındadır". Ölkələrimizin fəal iştirakı ilə reallaşdırılan enerji-nəqliyyat layihələri Avrasiya qitəsinin enerji təhlükəsizliyinin qorunmasında, ölkələr arasında iqtisadi əlaqələrin genişlənməsində önəmli rol oynayır. Türkiyə-Azərbaycan birliyi və həmrəyliyi Türk dünyasının daha sıx birləşməsinə kömək göstərir".

Bildirilib ki, Türkiyə 30 illik işğal dövründə vandalların viran qoyduğu Qarabağda və Şərqi Zəngəzurda hazırda aparılan bərpa-quruculuq işlərində və bütün digər məsələlərdə Azərbaycanın yanındadır. "Əminəm ki, Azərbaycanla Türkiyənin birlik və bərabərliyi qarşıdakı illərdə xalqlarımıza yeni-yeni uğurlar gətirəcək", - deyə parlamentin sədri vurğulayıb.

Tədbir ziyafət və konsert proqramı ilə davam edib.

# Hərbi təhsil həm də vətənpərvərliyi formalaşdırır

***Müsahibimiz Milli Müdafiə Universitetinin rektoru, professor, general-leytenant Heydər Piriyevdir.***



**- Cənab general, son üç il Azərbaycanda ordu quruculuğu sahəsində konkret yeniliklər dövrü oldu. Bu yeniliklər İkinci Qarabağ müharibəsində, mahiyyəti etibarilə Vətən müharibəsində qazanılan tarixi Zəfərlə bağlıdır.**

- 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı birləşmələri ərazilərimizə qəfil hücum edəndə Azərbaycan Ordusu düşmənin hücumunun qarşısını yenə qətiyyətlə aldı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin döyüş əmri ilə ordumuz əks-hücuma keçdi. Qısa müddətdə düşmənin işğal dövründə yaratdığı, möhkəmləndirdiyi, təkmilləşdirdiyi müdafiə sədlərini dağıtdı, döyüşlərdə ilk mövqe qələbələri qazandı. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Vətən müharibəsində xalqa müraciətində dedi: "Dünyada heç bir qüvvə bizi haqq yolundan döndərə bilməz. Dünyada heç bir ölkə bizim iradəmizə təsir edə bilməz. Biz haqq yolundayıq. Biz qalib gəlirik. Biz zəfər çalırıq və biz öz torpaqlarımızı geri alacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik". Bu kəlam Azərbaycan Ordusunun döyüş əzmini də yüksəltdi, qələbə ruhunu da. Ordu hissələrimiz döyüşə-döyüşə Böyük Qələbəyə yaxınlaşırdı. Obrazlı şəkildə desək, hər qələbə sonrakı döyüşlərin başlanğıcı olurdu.

- Vətən müharibəsi xalqın müharibəsi idi. Xalq ruhən ordunun yanındaydı. Ali Baş Komandanın sərkərdəlik məharəti qələbəni şərtləndirən bütün amilləri yüksək vətənpərvərlik ətrafında sıx birləşdirmişdi. Bu da ordunun yüksək döyüş hazırlığı ilə birlikdə tarixi Zəfərin qazanılmasında əhəmiyyətli oldu. Rusiya mətbuatında dərc edilən bir məqalə Şuşanın timsalında ümumən müharibədə Azərbaycan əsgərinin döyüş fəlsəfəsinin göstəricisi hesab edilə bilər: "Belə döyüş, dövlət, Vətən sevgisi görən olubmu, demək çətindir. Dağ yuxarı, şəhidi çiynində, döyüşə-döyüşə qan-tər içində qalxırdı Azərbaycan Ordusu. Nə yaralısını, nə şəhidini əldən buraxmırdı. Nəfəs almadan Şuşaya çıxdılar".

**- Bu gərəkli heyrəti təkcə döyüş hazırlığı ilə məhdudlaşdırmaq mümkün deyil.**

- Əlbəttə, elədir. Döyüş hazırlığı vətənpərvərliklə birləşəndə daha böyük gücə çevrilir. Vətən müharibəsində Azərbaycan əsgərinin döyüş əzmi də, qələbə ruhu da vətənpərvərlik duyğularının qüdrəti ilə qoşalaşdığına görə döyüşlərdə əlavə gücə, əlavə qüdrətə dönmüşdü.

**- Və tarixi Zəfər qazanıldı.**

- Azərbaycan Ordusu noyabrın 8-də Şuşanı işğaldan azad etdi. Noyabrın 10-da üçtərəfli Bəyanat imzalandı. Bu Bəyanat Azərbaycan Ordusunun qalibiyyət sənədi idi. Tarixi Zəfər Azərbaycan Ordusunun gücünün, möhtəşəm sərkərdəliyin, yüksək vətənpərvərliyin Zəfəri oldu. Tarixi Zəfər ordu quruculuğunda da mahiyyətli yeniliklər yaratdı. Belə yenliklər hərb elminin təhsil prosesinə daha intensiv, daha səmərəli tətbiqinə də şamil edilməyə başladı. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə Milli Müdafiə Universiteti yaradıldı.

Yeni təhsil sistemi hərbi təhsildə yeni tədris metodlarının tətbiqi üçün optimal imkanlar yaradıb, Azərbaycanda hərbi təhsili yeni mərhələyə keçirib. Bu mərhələ hərbçi kadrları hazırlığı prosesində müəyyən mütərəqqi yeniliklər deməkdir.

**- Mümkünsə, bu yenilikləri də xatırladın.**

- Azərbaycanda zabit kadrları hazırlanması prosesi iki istiqamətdə aparılır. Təbii ki, hər ikisinin də yönləndiricisi, təminatçısı vətənpərvərlikdir. Zabit kadrları həm Heydər Əliyev adına Hərbi İnstitutda, həm də Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində "Ehtiyat zabit hazırlığı kursu"nda hazırlanır: Bu, nə dərəcədə səmərəlidir? - mülki ali təhsil almış kadrlar müəyyən biliyə, biliklər sisteminə malik olduğundan bu biliklərin bazasında hərbi biliklər, hərbi təcrübi vərdişlər aşılamaq pedaqoji baxımdan da səmərəlidir.

Orduda hərbi vəzifələri müxtəlif hərbi rütbəli hərbi qulluqçular yerinə yetirirlər - zabitlərdən əlavə gizirlər, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçular. Hər iki kateqoriyadan olan hərbi qulluqçular da hərbi xidmətə müəyyənləşdirilmiş hazırlıqdan sonra başlayırlar. Yeni hərbi təhsil sistemində gizirlərin hazırlanması üzrə yeni tələblər müəyyənləşdirilib. Bu ildən etibarən gizir hazırlığı kurslarının müddəti 2 il olacaq. Təhlillər təsdiqləyir ki, bu müddət istər hərbi biliklərin, təcrübi vərdişlərin öyrədilməsi, aşılanması baxımından, istərsə də orta təhsil almış gəncin hərbçi kimi formalaşması baxımından hərbçi kadr kimi hazırlığında ən optimal müddətdir. Gizir hazırlığı kursuna tam orta təhsilli gənclər qəbul olunur. Bu kurs artıq fəaliyyətə başlayıb.

İstər zabit hazırlığı, istərsə də gizir hazırlığı, bu kurslarda təhsil almaq istəyənlərin, daha dəqiq desək, gələcəkdə zabit, gizir olmaq istəyənlərin vətənpərvərliyi ilə şərtlənir.

**- Yəni, bu kurslar həm də vətənpərvərliklə şərtlənir.**

- Bəli, bu kurslar istəyin, peşə seçiminin bazasında fəaliyyətə başlayır - bu kurslara hərbçi olmaq istəyənlər gəlir, onların arasından dəyanətlilər, və biliklilər seçilirlər. Bunu kadr hazırlığının "qızıl qaydası" da adlandırmaq olar.

**- Milli Müdafiə Universitetinin, bu sıradan Hərbi Elmi-Tədqiqat İnstitutunun fəaliyyəti cəmiyyətdə hərbi vətənpərvərlik duyğularının yüksəldilməsinin, genişləndirilməsinin, elmi əsaslarla formalaşdırılmasının cəfakeşidir.**

- Bəli. Hərbi Elmi-Tədqiqat İnstitutunun tədqiqatları həm də Vətən müharibəsinin döyüşlərini, döyüşlərin taktiki-strateji xüsusiyyətlərini, qələbəni şərtləndirən amillərin ümumiləşdirilməsini əhatələyir. Vətənpərvərlik də belə şərtlərdən biri, bəlkə də ən vaciblərindən biridir. İnstitutun Elmi Şurasının qərarı ilə bu sahə tədqiqat vahidi, tədqiqat obyekti kimi ayrıca öyrənilir, öyrənilənlər elmi baxımdan ümumiləşdirilir. Yüksək vətənpərvərlik duyğusuna malik olmayan döyüşçünün özü də, daxil olduğu hərbi qurum da məğlubiyyətə məhkumdur. Azərbaycan Ordusu Vətən müharibəsində döyüşləriylə təsdiqlədi ki, ordunun ən güclü silahlarından biri də yüksək, dönməz, sədaqətli vətənpərvərlikdir.

**- Cəmiyyətdə də, cəmiyyətin bir hissəsi olan orduda da vətənpərvərlik, bu baxımdan hərbi vətənpərvərlik tədbirləri ali, müqəddəs bir duyğunun daha yüksək səviyyədə formalaşmasına yönəldilir.**

- Müdafiə nazirinin müavini - Baş direktor Aqil Qurbanovun əmri ilə bu və ya digər universitetin tələbələri, orta məktəblərin şagirdləri ilə görüşlər keçirilir. Bu görüşlər Azərbaycanda hərbi təhsillə bağlı əhatəli bilgilər vermə, tələbələrin də, şagirdlərin də vətənpərvərlik ruhunu daha da yüksəltmə missiyasıdır, mahiyyət baxımından ordu-cəmiyyət münasibətlərini əhatələyir. Belə tədbirlər səmimiliyinə görə orduya ümumxalq sevgisinin tərkib hissəsinə dönür, düşüncələrə daha həssaslıqla hopur...

Hərbi təhsildə yaradılan yeniliklər zabit kadrları hazırlığı prosesində yeni fənlərin, klassik fənlər üzrə hərbi biliklərin tədrisə cəlb olunmasına, kursantlara aşılanmasına, yeni texnikaların, uçuş aparatlarının istismar və idarəetmə xüsusiyyətlərinin mənimsənilməsinə imkan yaradıb; Azərbaycanda yeni təhsil strukturu zabit kadrları hazırlığı prosesinin daha dönməz təminatçısı olub. Bunlarla bir sırada kursantların, eləcə də kursların dinləyicilərinin Vətənə sevgisini mətinləşdirmək istiqamətində gərəkli pedaqoji üsul və metodlardan istifadə də müəyyənləşdirilib, ilk uğurlar var.

Qeyd etdiyim kimi, mahiyyəti baxımından Vətən müharibəsi olan İkinci Qarabağ müharibəsində qazanılan tarixi Zəfər Azərbaycanda ordu quruculuğunda yeni mərhələ yaratdı. Bu mərhələ ordunun şəxsi heyətinin döyüş və mənəvi-psixoloji hazırlığının səviyyəsinin yüksəlişini də təmin etdi, ictimaiyyətin orduya münasibətində sıx ehtiramı da formalaşdırdı.

**- Vətən müharibəsinin döyüşləri gərəkli vətənpərvərlik dərsliyidir.**

- Bu döyüşlərin tarixi Zəfərlə tamamlanması da, müddəti də, Azərbaycan hərbçilərinin döyüş hazırlığı da, döyüş əzmi də, qələbə ruhu da dünyanın əksər dövlətlərini heyrətləndirdi, dünyanın aparıcı dövlətlərin orduları bu döyüşlərin öyrənilməsi zərurətini etiraf etdi. İndi xarici hərbi ekspertlər Azərbaycan əsgərinin mənəvi-psixoloji hazırlığını şərtləndirən amilləri də öyrənir, vətənpərvərliyini də. Biz bu vətənpərvərliyin elmi əsaslarla formalaşmasının üsul və metodlarını tədqiqata cəlb etmişik.

Azərbaycan Texniki Universitetində tələbələrdən biri maraqlı məqama toxundu: Hərbi xidmətdə hərbi ali təhsil alan zabitlə mülki ali təhsil aldıqdan sonra "Ehtiyat zabit hazırlığı kursu" keçmiş zabitin vəzifələrə təyin olunmasında fərq olurmu? Bu sualı orduya mövcud münasibətin ehtirama, istəyə, sevgiyə çevrilməsinin başlanğıcı bildik. Bu başlanğıc gərəkli vətənpərvərlikdir, ona gələcəkdə ali təhsilli mütəxəssisin zabit heyətinə daxil olma istəyinə zəmanət də deyə bilərik.

Milli Müdafiə Universitetinin yaradılması və fəaliyyətə başlaması Azərbaycanda hərbi təhsil sistemində həm forma, həm də məzmun baxımından (forma və məzmunun vəhdəti kimi) fəlsəfi - dialektik inkişafın bir mərhələsi, müasir hərbi təhsilin başlanğıcı oldu. Təhsildə yeniləşmə, müasirləşmə tədrisin forması və müddəti ilə məhdudlaşmır, elm və texnikanın inkişafının tədris prosesinə tətbiqi - yeni fənlərin, yeni mövzuların tədrisi gerçəkləşir. İkinci Qarabağ müharibəsində ordumuz PUA-lardan da istifadə etdi. Vətən müharibəsinin döyüşləri həm bütövlükdə, həm də səviyyələr baxımından öyrənilir, ümumiləşdirilir ki, bu da tədris prosesində elmi tezislər formatında kursantlara da çatdırılır. PUA-ların istismar xüsusiyyətlərinin öyrədilməsi bilavasitə ordunun güc amilinə yönəldilən pedaqoji-tədris fəaliyyətidir: Azərbaycanda hərbi təhsil həm də ordumuzun zaman anlamında sabahlarının zəmanətidir.

**- Müdafiə nazirinin müavini - Baş direktor Aqil Qurbanovun əmri ilə keçirdiyiniz görüşlərdə bu və ya digər universitetin tələbələrinin, orta məktəbin şagirdlərinin fəallığı necədir, təbii ki, belə tədbirlərdə fəallıq vətənpərvərliyin təzahürü olur.**

- Universitetlərdə də, orta məktəblərdə də tələbələrlə keçirilən görüşlərdə bunlar haqqında da danışırıq. Texniki Universitetdə tələbələrdən biri Azərbaycanda istehsal olunan silahlarla maraqlandı. Tələbənin vətənpərvərliyi bizə də, universitetin müəllimlərinə də könül xoşluğu verdi. Onun sualını hərbi sirrin mühafizəsi səviyyəsində cavabladıq. Belə suallar təkcə maraqdan yaranmır, həm də ordu quruculuğuna hərbi xidmətə ehtiramı ifadə edir...

Belə görüşlər Azərbaycan Pedaqoji Universitetində, Azərbaycan Respublikası Prezidenti yanında İdarəçilik Akademiyasında, Bakı Dövlət Universitetində də keçirilib.

Dövlət İdarəçilik Akademiyasında tələbələrdən biri soruşdu ki, bu ali təhsil müəssisəsinin məzunlarının orduda öz ixtisası üzrə xidməti mümkün olurmu? Ordu cəmiyyətin bir hissəsidir, struktur etibarı ilə cəmiyyətdən az fərqlənir. Bu gerçəkliyi xatırlamaqla tələbə özünün sualının cavabını özü bildirdi və əlavə olaraq qeyd etdi ki, sosial müstəvidə orduda təmsil olunmaq daha qürurludur. Verilən sualın belə cavablandırılması hamımıza xoş təsir bağışladı, sual həm də informasiya vermişdi. Başqa bir tələbə bu səmimi mükaliməmələşməni "Ordu bütün vətəndaşlar üçün qürur ünvanıdır", - fikri ilə ümumiləşdirdi. Universitetlərdə keçirilən görüşlər bu səviyyədə gözəl ümumiləşməni yaratmağa qadir görüşlər kimi tarixləşir. Eyni fikirləri orta məktəblərdə keçirilmiş görüşlərə də şamil etmək olar.

Belə görüşlər hərbi təhsilə, hərbi təhsilin timsalında ordu quruculuğuna, ordu quruculuğunun timsalında dövlətçiliyə sədaqətin ifadəsidir - ordu quruculuğunun tərkib hissələrindən biri olan hərbi təhsilə ehtiram vətənpərvərlik duyğularının yüksəlməsi deməkdir.

Tələbələrə, orta məktəblərin şagirdlərinə görüşləri təbliğat deyil, tələbələrə, şagirdlərə - zaman anlamında sabahların kadrlarına ordu haqqında daha əhatəli informativ biliklər çatdırmaq, bu biliklərin bazasında onların malik olduğu vətənpərvərlik duyğularını genişləndirməkdir. Belə görüşlərin mahiyyəti vətənpərvərlik duyğularını auditoriyada nəfəs-nəfəsə yaşamaqdır. Universitetlərdə, orta məktəblərdə keçirilən görüşlərdə eynilik olmur, mahiyyət eyniliyi olur. Məqsəd də bu mahiyyətin daha səmimi, daha əhatəli dərkidir...

**- Yəni, hərbi qulluqçunun gücünü vətənpərvərliyi müəyyənləşdirir.**

- Bəli, elədir. Ən güclü hərbi qulluqçu ən yüksək vətənpərvərliyə malik olandır.

**- Yerinə yetirdiyiniz missiya Azərbaycan Ordusunun daha da güclənməsində, Azərbaycan cəmiyyətinin mənəvi yüksəlişində əhəmiyyətli olacaq. Müsahibəyə görə sağ olun. Sizə və rəhbərlik etdiyiniz universitetin kollektivinə uğurlar arzulayırıq.**

- Sağ olun.

**Müsahibəni apardı:**
**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

# İlham Əliyevin Azərbaycan Prezidenti seçilməsinin 20-ci ildönümü münasibətilə ƏÜO-da silsilə tədbirlər keçirilir



Əlahiddə Ümumqoşun Orduda Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsinin 20 illiyi ilə əlaqədar silsilə tədbirlər keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, silsilə tədbirlər çərçivəsində Əlahiddə Ümumqoşun Ordunun birləşmə, hissə və bölmələrində, həmçinin Heydər Əliyev adına Hərbi Liseydə cənab İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti kimi 20 illik fəaliyyəti ilə bağlı dəyirmi masa və bu mövzuda söhbətlər aparılıb, mühazirələr oxunub, geniş məlumat verilib.

Tədbirlərdə əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi yad edilib, Dövlət Himnimiz səsləndirilib.

Məşğələlər zamanı Ulu Öndərin siyasi kursunun layiqli davamçısı, müstəqilliyimizi daha da möhkəmləndirən, dövlətimizin ərazi bütövlüyünü təmin edən Prezident İlham Əliyevin 20 illik hakimiyyəti dövründə ölkəmizdə bütün sahələrin sürətli inkişafa nail olmasında böyük inam və qətiyyətlə çalışması barədə şəxsi heyətə geniş məlumat verilib.

Qeyd olunub ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin apardığı ardıcıl siyasətin, diqqət və qayğısının məntiqi nəticəsidir ki, Azərbaycan Ordusu müasir silah-sursat, döyüş texnikası və döyüş əzmi baxımından dəfələrlə inkişaf edərək dünyanın aparıcı orduları sırasında yer alıb.

Məlumat verilib ki, Vətən müharibəsində və lokal xarakterli antiterror tədbirlərində Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan öz Zəfər salnaməsini yazaraq, bütün dünyaya öz gücünü nümayiş etdirib. Bu gün Azərbaycanın şanlı üçrəngli bayrağı 30 ildən sonra işğaldan azad olunmuş bütün şəhər və kəndlərimizdə dalğalanır.



Slayd vasitəsilə keçirilən məşğələlərdə bildirilib ki, "Ərazi bütövlüyümüzün bərpası, torpaqlarımızın qaytarılması mənim Prezident kimi başlıca vəzifəm idi" deyən və bu vəzifənin öhdəsindən layiqincə gələn Prezidentimizə, Müzəffər Ali Baş Komandanımıza bundan sonra da hər birimiz fəal dəstək verməli, onun ətrafında dəmir yumruq kimi birləşməliyik. Çünki həm dövlət, həm də xalq olaraq gələcəyimiz bu sarsılmaz birlik və həmrəylikdən asılıdır.

Məşğələlərdə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə aparılan ordu quruculuğundan və şanlı ordumuzun zəfərlərindən bəhs edən videoçarxlar nümayiş olunub.

Qeyd edək ki, Əlahiddə Ümumqoşun Orduda cənab İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsinin 20 illiyi ilə əlaqədar keçirilən silsilə tədbirlər davam edir.

# Tarixi Zəfərə görə yaşanılan qürur



"N" hərbi hissəsinin şəxsi heyəti də Vətənimizin ərazi bütövlüyü, suverenliyi uğrunda döyüş əməliyyatlarında fəal iştirak etdi, qarşıya qoyulan döyüş tapşırıqlarını məsuliyyətlə, qətiyyətlə yerinə yetirib, düşmən təxribatlarının qarşısının alınmasında şücaət və hünər göstərdi.

Qəhrəmanların döyüş yollarını özlərinə örnək bilən Vətən müdafiəçiləri Hərbi Anda həmişə sadiq qalıblar. Azərbaycan Ordusunun zəfərləri ilə başa çatan bütün döyüş əməliyyatları bu sadiqliyin, yüksək döyüş hazırlığının, peşəkarlığın, vətənsevərliyin təsdiqi oldu. Bu qələbələr həm də xalqla ordunun monolit birliyini nümayiş etdirdi. Bunlar "N" hərbi hissəsinin yaradılmasının 28-ci ildönümünə həsr olunmuş təntənəli mərasimdə də qeyd edildi.

Öncə dünya şöhrətli siyasətçi, müasir Azərbaycan dövlətinin qurucusu və banisi Ulu Öndər Heydər Əliyevin və ərazi bütövlüyümüz uğrunda şəhid olanların xatirələri dərin ehtiramla yad edildi. Dövlət Himni səsləndirildi.

Mayor Elsevər Hüseynov Vətən müharibəsində qazanılan tarixi Zəfərdən, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəlik qüdrətindən, xalqla ordunun birliyinin möhtəşəmliyindən danışdı. Bildirdi ki, Silahlı Qüvvələrimiz və xalqımız Müzəffər Ali Baş Komandanın ətrafında sıx birləşərək, 30 ilə yaxın işğal altında qalan torpaqlarımızı beynəlxalq hüququn tələblərinə, qayda-qanunlara məhəl qoymayan, havadarlarından siyasi və hərbi dəstək alan düşmən qüvvələrindən azad etdi. Düşmənlər üçtərəfli Bəyanata tam əməl etmədilər. Ermənistan silahlı qüvvələrinin dağılmış hissələri Qarabağda təxribatlarını davam etdirirdi. Dəfələrlə xəbərdarlıqlar olunsa da, torpaqlarımızda hərbi cinayətlər törətməkdə davam edirdilər. Sentyabrın 19-da ordumuz əməliyyatlar keçirərək düşmən qüvvələrini məğlub etdi. Bununla da ərazi bütövlüyümüz tam bərpa edildi.

Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin əməkdaşları Turac Yusifova, Naibə Qurbanova və başqaları da rəşadətli ordumuzun qazandığı tarixi Zəfərin hərb tariximizdə əvəzsiz yer tutduğunu iftixar hissi ilə bildirdilər. Qeyd etdilər ki, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin böyük sərkərdəlik qabiliyyəti, həyata keçirdiyi uğurlu xarici siyasət, ordu quruculuğuna göstərdiyi böyük diqqət və qayğı tarixi Zəfərin qazanılmasında əsas oldu. Vətən müharibəsində Azərbaycan xalqının qəhrəman, vətənsevər, polad iradəli xalq olduğu bir daha təsdiqləndi.

Birlik və hərbi hissə komandanlığı tərəfindən xidmətdə fərqlənənlərə təşəkkür elan edildi, fəxri fərmanlar təqdim olundu.

Döyüş hazırlığında fərqlənən əsgərlərə Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin kollektivi adından da qiymətli hədiyyələr təqdim edildi.

Çıxış edən əsgər və zabitlər Vətənə və xalqa daim sədaqətli olacaqlarını, Mübariz, Fərid, Çingiz, Polad, Samid, Şükür və başqaları kimi Vətənə əvəzsiz xidmətləri ilə əbədiləşərək, şəhidlik zirvəsinə ucalanların layiqli davamçıları olaraq xidmətlərini davam etdirəcəklərini bildirdilər. Sonra "Əsgərə məktub" layihəsi çərçivəsində əsgərlərə Tərtər, Yevlax, Cəlilabad ictimaiyyəti adından ünvanlanan məktublar təqdim olundu. Əsgərlər valideynlərinə qürur hissi ilə məktublar ünvanladılar.

Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin nəzdində fəaliyyət göstərən "Vətən uğrunda" ansamblının solistləri Sevinc Nəsirova, Nuranə Hüseynova və başqaları vətənpərvərlik mahnıları ifa etdilər. Konsert proqramı rəğbətlə qarşılandı.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**



# Bir qrup şəhid ailəsinin Türkiyəyə səfəri təşkil olunub



Müdafiə Nazirliyi və Türkiyə-Azərbaycan İş Adamları və Sənayeçiləri İctimai Birliyinin birgə təşkilatçılığı ilə bir qrup şəhid ailəsinin Türkiyə Respublikasına səfəri təşkil olunub.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, səfər çərçivəsində şəhid ailələri Kayseri şəhərində qardaş ölkənin şəhid olan hərbi qulluqçularının ailələri və şəhər rəsmiləri ilə görüşüblər.

Bundan başqa, şəhidlərimizin ailə üzvləri Kayseri şəhərinin görməli yerlərində olub, tarixi abidələri, Xocalı parkını və Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidəni, eləcə də qardaş ölkənin şəhid olan hərbi qulluqçularının məzarlarını ziyarət ediblər.

# Türkiyənin Cümhuriyyət Bayramı münasibətilə tədbirlər keçirilib



Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, Türkiyə Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü münasibətilə tədbirlər keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, tədbirlərdə əvvəlcə Ulu Öndərlər Heydər Əliyev və Mustafa Kamal Atatürkün, eləcə də şəhidlərin ruhu bir dəqiqəlik sükutla yad edilib. Hərbi orkestrin müşayiəti ilə Azərbaycan və Türkiyə respublikalarının Dövlət himnləri ifa edilib.

Tədbirlər çərçivəsində bu mövzuda söhbətlərin aparılması, şəxsi heyətin məlumatlandırılması təşkil olunub, Türkiyə Cümhuriyyətinin yaranmasının 100-cü ildönümünə həsr olunan videoçarxlar nümayiş etdirilib.

Çıxış edənlər Türkiyənin Cümhuriyyət bayramının Azərbaycanda təntənəli şəkildə qeyd edilməsindən, ölkələrimiz arasında münasibətlərin möhkəm qardaşlıq təməlləri üzərində qurulmasından danışıblar.

# Hərbi Prokurorluq Ulu Öndərin 100 illik yubileyi ilə bağlı silsilə tədbirləri davam etdirir



Qazaxda rayon rəhbərliyi və Dövlət Sərhəd Xidmətinin (DSX) hərbi qulluqçuları ilə birgə tədbir keçirilib.

Hərbi Prokurorluqdan AZƏRTAC-a verilən məlumata görə, əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin abidəsinin və şəhidlər Quşəsinin önünə gül dəstələri düzərək, onların əziz və unudulmaz xatirələri bir dəqiqəlik sükutla anılıb, Allahdan onlara rəhmət, qazilərə şəfa arzulanıb.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra Baş prokuror Kamran Əliyevin və Hərbi prokuror Xanlar Vəliyevin salamları şəxsi heyətə və tədbir iştirakçılarına çatdırılıb.

Tədbirdə Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov, DSX-nın Sərhəd Qoşunlarının "Qazax" əlahiddə sərhəd diviziyasının komandiri general-mayor Misir Əliyev, Hərbi Prokurorluğun Hərbi prokurorluqlarda istintaqa nəzarət şöbəsinin rəisi, ədliyyə polkovniki Hümmət Məmmədov, Hərbi prokurorun böyük köməkçisi, mətbuat xidmətinin rəhbəri, baş ədliyyə müşaviri Firad Əliyev, Qazax rayon prokuroru, baş ədliyyə müşaviri Rauf Gözəlov, Şəmkir hərbi prokuroru, ədliyyə polkovnik-leytenantı İlham Babayev və digərləri çıxış edərək müstəqillik yolumuzu və firavan istiqbalımızı nurlandıran, xalqını zamanın sərt sınaqlarından yüksək məharətlə çıxararaq, hər bir çətin vəziyyətdən ən düzgün çıxış yolu tapan nəhəng tarixi şəxsiyyət Heydər Əliyevin şərəfli və mənalı ömründən, çoxşaxəli və zəngin fəaliyyətindən, dövlətimizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində misilsiz xidmətlərindən və dünya siyasətinə verdiyi töhfələrdən bəhs ediblər.



Çıxışçılar, eyni zamanda, xalqımızın böyük oğlu Heydər Əliyevin Azərbaycanın parlaq gələcəyinə hesablanmış mükəmməl siyasətini yeni müstəvidə dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 il müddət ərzində ölkəmizdə görülmüş misilsiz işlərdən, həyata keçirilmiş hərtərəfli köklü islahatlardan, bütün sahələrdə qazanılmış müstəsna nailiyyətlərdən, o cümlədən qüdrətli Silahlı Qüvvələrimizin formalaşmasından, bu uğurların əldə olunmasında Birinci vitse-prezident Mehriban xanım Əliyevanın dəstəyindən və xalqın müdrikliyindən danışıblar.

Tədbirdə, həmçinin Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Vətən müharibəsində qazanılmış tarixi Qələbə və uğurlu antiterror tədbirləri xüsusi vurğulanmaqla, o dövrlərdə prokurorluğun, eləcə də hərbi prokurorluğun Silahlı Qüvvələrlə, o cümlədən DSX ilə, eləcə də aidiyyəti rayonların rəhbərlikləri ilə qarşılıqlı səmərəli fəaliyyətindən bəhs edilib, iftixar dolu günlərin unudulmaz təəssüratları xatırlanıb.

Sonda hərbi qulluqçular qarşısında hüquqi maarifləndirici məzmunlu çıxışlar olunub, onları maraqlandıran suallar cavablandırılıb, eləcə də hərbçilərin qayğı və problemləri barədə məlumat verilib.

# Torpaqlarımızda həyatın canlanmasına gün keçdikcə daha da yaxınlaşırıq



(Əvvəli 1-ci səhifədə)

Təəssüf doğuran odur ki, adıçəkilən problemlə bağlı beynəlxalq təşkilatlar tərəfindən heç bir bəyanat səslənməyib, konkret addımlar atılmayıb. Necə ki, uzun illər tarixi Azərbaycan torpaqları işğalda olanda heç bir beynəlxalq qurum işğalçını öz adı ilə çağırmadı, beynəlxalq hüquq norma və prinsiplərinin təmin olunması üçün heç bir konkret işlər görülmədi və nəticədə 30 ilə yaxın müddətdə bu məsələ öz həllini tapmadı. Haqq işimizi özümüz gördüyümüz, ədaləti özümüz təmin etdiyimiz kimi, bu işi də öz gücümüzə, öz iradəmizə həll edə biləcək gücə malik bir ölkəyik. Belə ki, qarşıya qoyulan prioritet tapşırığa əsasən, işğaldan azad olunan tarixi ərazilərimizdə təhlükəsizliyin təmin edilməsi, mina probleminin həll olunması və əhalinin tez bir zamanda ata-baba yurdlarına köçürülməsi üçün Azərbaycan Ordusunun mühəndis bölmələri və Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) nümayəndələri tərəfindən mühəndis təminatı tapşırıqlarının icrasına yönəlik fəaliyyətlər uğurla davam etdirilir.

Bu fəaliyyətləri uğurla davam etdirən "N" hərbi hissəsinin mühəndis bölməsinin şəxsi heyəti ilə tanış olduq. İlk müsahibim müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Möhübbət Məmmədli söhbətində mühəndis istehkam bölmələrinin xidmətindən danışdı: "Təsdiq olunan plana əsasən, keçirilən dərslər və təlim məşqlərdə hərbi qulluqçular mühəndis təminatı tapşırıqlarının icra olunmasında nəzəri biliklər və praktiki təcrübə qazanırlar. Təcrübəli komandirlərimiz bölməmizdə xidmət edən gənc istehkamçılarımızın lazımi səviyyədə formalaşması üçün əlindən gələni əsirgəmirlər. Bu sahənin incəliyi ondan ibarətdir ki, əgər mühəndis-istehkam ixtisası üzrə xidmətini davam etdirirsənsə, sənin səhv etmək şansın yoxdur. Ona görə də şəxsi heyətin həm nəzəri, həm də praktiki bilikləri lazımi səviyyəyə çatdırıldıqdan sonra real şəraitdə torpaqlarımızın mina və partlamamış döyüş sursatlarından təmizlənməsi üçün icra edilən mühəndis təminatı tapşırıqlarında iştirak etməyə icazə verilir.

İşğala məruz qalmış tarixi torpaqlarımızda minalanmış döyüş əməliyyatları gedən əraziləri partlamamış sursatlardan təmizləmək tapşırıqları bölməmiz tərəfindən icra olunur. Arsenalımızda olan müasir tipli minaaxtarma vasitələri xidmətimizin düzgün təşkilində və tapşırıqların təhlükəsiz şəraitdə icrasında mühüm rol oynayır. Təmizlənmiş və təhlükəsiz ərazilərdə bu gün dövlət tərəfindən bərpa-quruculuq işləri aparılır. Soydaşlarımız artıq ata-baba yurdlarına qayıdırlar. Bu proses mərhələli şəkildə aparılır, çünki insan amili vacib faktordur ki, orada təhlükəsizliyin tam təmin olunması əsas şərtdir. Bizlər də çalışırıq ki, 30 ilə yaxın torpaq həsrəti çəkənlər tezliklə öz el-obalarına qayıtsınlar".

Növbəti müsahibim əsgər Abdulkərim Qafarov peşəkar komandirlərinin onların təcrübəli mühəndis-istehkamçı kimi formalaşmasında böyük rolların olduğunu qeyd etdi. "Komandirlərimiz 44 günlük haqq savaşımızda yüksək peşəkarlıq nümayiş etdirməyi bacarmış zabitlərdir. Məhz onların təcrübələrindən faydalanaraq bu ixtisasın incəliklərinə dərindən yiyələnir, müasir mühəndis təminatı tapşırıqlarının yerinə yetirilmə üsul və metodlarını mənimsəyirik. Silahlanmamızda olan müasir texnika və avadanlıqlardan istifadə edərək, qarşıya qoyulan tapşırıqları dəqiqliklə icra edirik. Real döyüş təcrübəsi olan komandirlərimiz tərəfindən ixtisas biliklərimiz təlim və dərslərdə daha da möhkəmləndiririk".



Əsgər Nurel Vəliyev Abdulkərimin sözünə qüvvət verərək, öz ixtisasının dərinliklərini öyrəndikdən sonra Qarabağımızın minalardan və partlamamış döyüş sursatlarından təmizlənməsi üzrə fəaliyyətdə iştirak edəcəyi günün arzusunda olduğunu bildirdi. "Mühəndis-istehkam bölməsində xidmət etmək məsuliyyətli və bir o qədər də qürurvericidir. Komandirlərimiz və əsgərlərimiz tapşırıqların icrasından qayıdarkən bizimlə söhbətlərində, düşmənin tarixi ərazilərimizə basdırdığı saysız-hesabsız minaların aşkarlanması və zərərsizləşdirilməsi prosesindən danışır və bizi bu mövzuda geniş maarifləndirirlər. Tezliklə torpaqlarımızda mühəndis təminatı tapşırıqları icra edəcəyim və vətəndaşlarımızın orada təhlükəsiz həyatını təmin etməkdə pay sahibi olacağam üçün də qürurluyam".

Mühəndis təminatı tapşırığının icrasından yenicə qayıtmış əsgər İsrafil İbrahimov qarşıya qoyulan tapşırığın icrasının verdiyi qürurdan ürəkdolusu danışdı: "Vətənə müqəddəs övladlıq borcumuzu ödəmək və tarixi torpaqlarımızın həqiqi sakinlərinin doğma yerlərə qayıdışını təmin etmək üçün böyük səylə çalışırıq. Ərazinin geniş olması bizi narahat etmir, əksinə, hər gün daha da irəliləyir və çoxdan arzulanan o günü xalqımıza bəxş edəcəyimiz anın sevincini yaşamaq istəyirik".

Həmsöhbət olduğum əsgər Fərid Novruzov mühəndis-istehkamçı olmaq üçün təhlükəsizlik qaydalarına xüsusi diqqət yetirmək lazım olduğunu dedi: "Komandirimiz baş leytenant Azər Mədətov hər zaman deyir ki, bir istehkamçının təcrübəsi, min döyüşçünün yaşamasına səbəb ola bilər, lakin bir istehkamçının təhlükəsizlik qaydasını pozması ağır nəticələrə gətirib çıxarar. Bizim ixtisasımızda risk dərəcəsi nəzərə alınaraq, təhlükəsizlik qaydası prioritet hesab olunur. Bunun üçün də hər birimiz diqqətli və ən əsası məsuliyyətli olmağa çalışırıq".

Mənfur düşmənin ərazilərimizə basdırdığı minaların aşkarlanması və zərərsizləşdirilməsi üçün Azərbaycan əsgəri bütün bilik və bacarığını səfərbər edir. Çünki bu vəzifənin sonunda müqəddəs amal dayanıb: azərbaycanlıların - o yerlərin həqiqi sakinlərinin öz yurdlarına, evlərinə Böyük Qayıdışı. Artıq bu prosesə start verilib - yüzlərlə ailə öz doğma yurduna qovuşub. Bu firavanlığın təmin olunmasında yüksək təcrübəyə, polad iradəyə və böyük vətənpərvərlik hissinə malik Vətən oğullarının misilsiz payları var. Bu gün tarixi torpaqlarımızın məruz qaldığı mina terrorunun aradan qaldırılması üçün qəhrəman oğullarımız böyük şücaət göstərərək, yüksək nəticələr əldə edirlər. Günlər keçdikcə tarixi torpaqlarımızda həyatın canlanmasına daha da yaxınlaşırıq.

**Kapitan**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

# Ermənilərin Qarabağda törətdikləri vəhşiliklərin qanlı izləri

**III yazı**

Erməni qəsbkarlarının 1988-ci ildən Qarabağda başladıqları işğalçılıq fəaliyyətləri bir gün, bir an olsun belə səngimirdi. Azərbaycanlıları doğma ocaqlarından sıxışdırıb çıxarmaq üçün daşnak xislətli ermənilər bütün qanlı vasitə və üsullara əl atırdılar. Qarşılarına qoyduqları məqsəd və məramlarına çatmaq üçün demək olar ki, hər gün azərbaycanlılar yaşayan kənd və qəsəbələrə hücum edirdilər. İnsanları vəhşicəsinə öldürür, evləri yandırırdılar. Sanki ermənilər məqsədlərini ildırım süræti ilə həyata keçirməyə çalışırdılar. Min təəssüflər olsun ki, azərbaycanlılar yaşayan kəndlərə olunan qəfil hücumlar və həmlələr qanlı sonluqla başa çatırdı. İllərdən, əsrlərdən bəri doğma ocaqlarında yaşayan azərbaycanlılar amansızcasına öldürülür, sağ qalanlar isə ev-eşiyindən qovulurdular. Qaçıb evindən çıxa bilməyənləri isə işgəncələrlə dolu erməni əsirliyi gözləyirdi.

Heç vaxt özlərinin olmayan torpaqları ələ keçirmək üçün ermənilər bir-bir azərbaycanlılar yaşayan şəhərləri, kənd və qəsəbələri işğal edib yandırırdılar. Daşnakların yaşayış məntəqələrini yandırmaqda məqsədləri bu yerlərdən azərbaycanlıların izlərini tamamilə silmək idi. Getdikcə hücumlarını gücləndirən erməni qəsbkarları 1991-ci ilin dekabrın sonlarında Xocalı rayonunun Meşəli kəndini işğal edib odlara qaladılar. 1992-ci ilin əvvəllərində isə Xankəndi şəhərindən, Kərkicahan qəsəbəsindən azərbaycanlıları silah gücünə qovdular. Ağrı-acılarla dolu olan tarixi faktlara nəzər yetirdikcə öyrənirik ki, 1991-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən Qarabağda azərbaycanlılar yaşayan 30-dan çox kənd yandırılıb, dağıdılıb və talan edilib. Yüzlərlə sakin amansızcasına öldürülüb. Minlərlə insan doğma ocaqlarından qovulub. Neçələrini isə ermənilər əsir apardılar. Hadisələrin bu cür gedişi Qarabağda yaşayan azərbaycanlıları daha böyük fəlakətlər gözlədiyindən xəbər verirdi.

Ermənilər həmin illərdə Qarabağa gedən bütün yolları da nəzarətə götürmüşdülər. Buna görə də demək olar ki, bölgə erməni silahlılarının mühasirəsində qalmışdı. 1991-ci ildən mühasirədə qalmış kənd və qəsəbələrə gediş-gəliş yalnız və yalnız hava yolu ilə mümkün idi. Təəssüflər olsun ki, erməni quldurları Qarabağda yaşayan azərbaycanlılara humanitar yardım aparan helikopterləri də vururdular. Fakt üçün deyək ki, 1992-ci il yanvarın 28-də Ağdamdan Şuşaya uçan 27137 nömrəli, Mİ-8 helikopteri şəhərə çatmamış, Xəlfəli kəndinin üzərində ermənilərin Xankəndi istiqamətindən atdığı raketlə vurulmuşdu. Partlayışın nəticələri çox ağır olmuşdu. Helikopterin 3 nəfər heyət üzvü və 41 sərnişini faciəli şəkildə həlak olmuşdu. Bununla da Qarabağa gedən hava yolları da bağlanmışdı. Baş verən bu hadisələr ermənilərin yaxın gələcəkdə törədəcəkləri böyük soyqırımların ilk qığılcımları idi.

Azərbaycanlıların mühasirəyə düşdüyünü, köməksiz qaldığını görən ermənilər 1992-ci ilin əvvəllərindən başlayaraq onların yaşadıqları kəndlərə hücumlarını daha da gücləndirirdilər. Güclənən bu hücumlar Qarabağ müharibəsini daha da güclü alovlandırırdı. Alovlanan müharibə isə yüzlərlə insanın həyatına son qoyurdu. Vəziyyət günbəgün gərgin xarakter alırdı. Ermənistan ordusu bir-birinin ardınca Qarabağda azərbaycanlılar yaşayan kənd və qəsəbələri işğal edirdi. Zaman keçdikcə hadisələr daha da qanlı məcraya yuvarlanırdı.

Xalqımıza qənim kəsilmiş ermənilər soyuq qış günlərinin birində Malıbəyli, Yuxarı və Aşağı Quşçular kəndlərini də işğal edib yandırdılar. Əhalisinə qarşı soyqırımı həyata keçirtdilər, sağ qalanları əsir götürdülər. Həmin günlər xalqımızın tarixinə qanla yazıldı. Qanla yazılmış bu tarixi oxuyanda baş vermiş hadisələrdən sarsılırıq. Bizi sarsıdan bu qanlı hadisələr bir daha erməni vəhşiliyinin iç üzünü açıq-aydın göstərir.

**Malıbəyli və Quşçular faciələri**

Azərbaycanın əbədi-əzəli ərazisi olan Qarabağın böyük yaşayış məskənlərindən olan Malıbəyli, Aşağı və Yuxarı Quşçular kəndləri Şuşa rayonunda, Qarabağ silsiləsinin dağətəyi ərazisində yerləşir. Erməni silahlı dəstələri Xocalını işğal etmək üçün, ilk növbədə, Malıbəyli, Aşağı və Yuxarı Quşçular kəndlərini ələ keçirməyə çalışırdılar. Bu çirkin və qanlı niyyətlərini həyata keçirmək üçün işğalçılar 10 fevral 1992-ci ildə çoxlu sayda silahlı dəstələrlə 3 müxtəlif istiqamətdən Malıbəyli, Aşağı və Yuxarı Quşçular kəndləri üzərinə hücuma keçdilər. Bu kəndlərdə yaşayan 3 mindən çox əhali düşmən əlinə keçməmək üçün meşələrlə, dağlarla ya Xocalıya, ya da Ağdama qaça bilərdilər. Xilas üçün başqa yol yox idi. Təəssüflər olsun ki, həmin gərgin günlərdə 3 mindən çox sakini cəmi 60 nəfər əli silahlı müdafiə edirdi. Döyüşmək istəyən çox olsa da, silah tapılmırdı. Demək olar ki, kəndlər müdafiəsiz qalmışdı. Təpədən-dırnağadək silahlanmış Ermənistan silahlı qüvvələri qarşısında 60 nəfər necə dayana bilərdi ki? Təbiidir ki, bu mümkün olan bir iş deyildi. Vuruşan qüvvələrin silahı az olsa da, sakinləri müdafiə edə biləsələr də, heç olmasa onları kəndlərdən sağ-salamat çıxarmağa çalışırdılar. Ancaq düşmən çox amansız və qəddar idi. Dinc camaatın da evlərindən sağ çıxıb Xocalıya, Ağdama getməyinə imkan vermirdi. Ermənilər bu kəndlərdən çıxıb Xocalı istiqamətinə qaçmaq istəyən sakinləri öldürmək və girov götürmək üçün əvvəlcədən hərtərəfli hazırlıq işləri görmüşdülər. Ağbulaq və Pircamal kəndləri yaxınlığındakı dağların zirvələrində mövqe tutaraq əhalinin qaça biləcəyi ehtimal olunan yolları ciddi nəzarətə götürmüşdülər. Azərbaycanlıları öldürmək üçün burada pusqu qurmuşdular. Təəssüflər olsun ki, ermənilər həmin günlər kənd camaatına qarşı soyqırımı planlarını həyata keçirtdilər. Malıbəyli, Aşağı və Yuxarı Quşçular kəndlərinin sakinləri ələ keçməmək üçün pusqu qurulan ərazidən keçib Ağdama, Xocalıya qaçmaq istəyərkən ermənilər bu silahsız, dinc insanlara hücum etdilər. Hücum zamanı 50-yə yaxın dinc azərbaycanlı qətlə yetirildi, 100-dən çox sakin ağır yaralandı və ermənilər tərəfindən əsir götürüldü. Demək olar ki, bir-iki günün içində bu kəndlər erməni işğalçılarının əlinə keçdi. Qarabağın bu gözəl guşəsi işğal olundu, əhalisi doğma ocaqlarından didərgin salındı.

1992-ci il fevralın 11-12-də Şuşanın Malıbəyli, Aşağı və Yuxarı Quşçular kəndləri erməni silahlı dəstələri tərəfindən tamamilə zəbt olundu. Bu qanlı işğal keçmiş SSRİ-nin Xankəndidə yerləşən 366-cı motoatıcı alayının zabit və əsgərlərinin iştirakı ilə həyata keçirildi. O zaman təcavüzkar erməni silahlı dəstələrinin tərkibində döyüşən Suriya, Livan, ABŞ və Fransadan gətirilmiş muzdlular da bu qanlı işğalda iştirak edirdilər. Qarabağın bu gözəl guşəsində azərbaycanlılara qarşı vəhşiliklər törədirdilər. Faktlardan göründüyü kimi ermənilər Qarabağın kəndlərini işğal etməyə çox ciddi hazırlaşmışdılar. Əməliyyatlara xeyli qüvvə cəlb etmişdilər. Xankəndinin yaxınlığında yerləşən və düşmənə sipər olan bu kəndlərin sakinləri 1988-1992-ci illərdə erməni təcavüzünə qarşı mərdliklə mübarizə aparsalar da, bu yolda şəhid olsalar da, torpaqlarını erməni işğalçılarından sonadək müdafiə edə bilmədilər. Çünki düşmən çox güclü və arxalı idi. Ermənistanın törətdiyi bu qətliam - Malıbəyli, Aşağı və Yuxarı Quşçular faciəsi Xocalı soyqırımına gedən yolun başlanğıcı oldu.

Sakinlərinin hamısı azərbaycanlılardan ibarət olan Malıbəyli və Quşçular kəndləri rayonun inzibati mərkəzi olan Şuşa şəhərinə yaxın dağlıq ərazidə - yaylaqlarda yerləşirdi. İşğal ərəfəsində kəndlərdə xeyli əhali yaşayırdı. Yerli sakinlərdən başqa 1988-ci ildə Ermənistandan zorla qovulmuş 1500-ə yaxın qaçqın da bu yaşayış məntəqələrində yerləşdirilmişdi. Qarabağ müharibəsi başlayan ilk günlərdən başqa yaşayış məntəqələri kimi, bu kəndlər də erməni silahlı birləşmələrinin əsas hədəflərinə çevrilmişdi. 1991-ci ilin oktyabrından Malıbəyli, Aşağı və Yuxarı Quşçular kəndləri işğalçılar tərəfindən tamamilə mühasirəyə alınmışdı.

İşğaldan bir həftə əvvəl 1992-ci il fevralın 5-də kəndlərin üstündən uçan erməni helikopteri camaata yaşayış yerlərini tərk etmək üçün iki gün vaxt verildiyini bildirən vərəqələr atmışdı. Sakinlər bu vərəqələri oxusalar da, evlərini tərk etmək istəmirdilər. İstəmirdilər ki, onların doğma ocaqları düşmən əlinə keçsin. Nə qədər direniş göstərsələr də, edilən son güclü hücum və həmlələr kəndlərin yaxın zamanlarda ermənilər tərəfindən işğal olunacağından xəbər verirdi. Camaat müqavimət göstərsə də, düşmən məqsədindən əl çəkmirdi. İşğalçılıq məqsədi daşıyan hücumlar səngimirdi.

Yenicə yaranmış Azərbaycan Silahlı Qüvvələrinin Xankəndi şəhərinin düşmən işğalından azad edilməsi üçün həyata keçirdiyi əks-hücumlara cavab olaraq ermənilər də Malıbəyli və Quşçular kəndlərinə hücum edirdilər. Bu yaşayış məntəqələrini işğal etməyə çalışırdılar.

1992-ci il fevralın 10-da ermənilərin güclü hücumu nəticəsində Malıbəyli və Quşçular kəndləri tamamilə işğal olundu. Sakinlər doğma ocaqlarından qaçqın düşdülər. Kəndləri ələ keçirən ermənilər evləri yandırdı, sakinləri gülləboran etdilər. Qüvvələri az olsa da, kəndlərin sakinləri yurdlarını qorumaq üçün düşmənlə vuruşdular. Amma gücləri və təminatları zəif olduğuna görə Ermənistan silahlı qüvvələri qarşısında sonadək dayana bilmədilər.

...Şükürlər olsun ki, gec də olsa işğala son qoyuldu. 19-20 sentyabr 2023-cü ildə ordumuzun Qarabağ separatçılarına qarşı həyata keçirdiyi əməliyyat tədbirləri nəticəsində Qarabağın başqa yaşayış məntəqələri kimi, Malıbəyli, Aşağı və Yuxarı Quşçular kəndləri də erməni işğalçılarından azad olundu. Uzun illərdən sonra haqq-ədalət öz yerini tapdı. Çox keçməyəcək ki, illərcə əvvəl doğma ocaqlarından qovulmuş insanların səsi yenə də Malıbəylidən, Aşağı və Yuxarı Quşçular kəndlərindən eşidiləcək. Bu yaşayış məntəqələrində həyat əvvəlki axarına düşəcək.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyə Hərbi Dəniz Qüvvələri ölkə tarixinin ən böyük paradını keçirib



Cümhuriyyətin 100-cü ildönümü münasibətilə Türkiyə Hərbi Dəniz Qüvvələri (HDQ) ölkə tarixinin ən böyük paradını keçirib.

"Yüzüncü ildə yüz gəmi" şüarı altında keçirilən paradı Türkiyə Respublikasının HDQ komandanı donanma admiralı Ercüment Tatlıoğlu ölkənin ən böyük "TCG Anadolu" amfibiya gəmisindən idarə edib.

Parad əsnasında Türkiyənin Hərbi Hava Qüvvələrinə aid təyyarələr İstanbul boğazı üzərində uçuşlar həyata keçirib.

Nümayişdə "Solo Türk" və "Türk ulduzları" qrupuna daxil olan aviasiya vasitələri, eləcə də "F-16" və "F-4E" qırıcıları daxil olmaqla 20 təyyarə iştirak edib.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan başda olmaqla, dövlət və hökumət rəsmiləri nümayişləri izləyiblər.

## Cümhuriyyətin 100-cü ildönümündə Misir Piramidaları üzərində Türkiyə bayrağı dalğalanıb



Dünyada ilk dəfə bir türk Misirdə Cümhuriyyətin 100 illiyi münasibətilə piramidaların üzərindən paraşütlə sərbəst tullanaraq Türkiyə bayrağını qaldırıb.

Təcrübəli türk paraşütçü Femen Öğdün Şirin 4500 metr hündürlükdən paraşütlə sərbəst tullanma həyata keçirib və dünya möcüzələrindən sayılan Misir Piramidaları üzərində Türkiyə bayrağını dalğalandırıb.

Bu günə qədər 1000-dən çox uçuş həyata keçirən Öğdün, Cümhuriyyətin 100-cü ildönümündə Misirdəki məşhur piramidaların üzərindən uçan ilk türk olmanın sevincini və qürurunu yaşadığını ifadə edib.

## Qana terrorçularla mübarizə üçün Aİ-dən 100-dən çox zirehli maşın alıb



Qana terrorçularla mübarizə üçün Avropa İttifaqından 105 ədəd zirehli maşın alıb.

Bu barədə "France-Presse" agentliyi məlumat yayıb.

Qeyd olunub ki, Qanada səfərdə olan Aİ-nin beynəlxalq siyasət və təhlükəsizlik məsələləri üzrə ali komissarı Cosef Borel zirehli maşınların əlavə olaraq hava müşahidə avadanlığı və elektron müharibə sistemləri ilə təchiz ediləcəyini vəd edib.

Avropa İttifaqının Qanaya dəstəyi dörd Qərbi Afrika ölkəsinin müdafiəsini və təhlükəsizliyini gücləndirməyə yönəlmiş 616 milyon avroluq yardım paketinin bir hissəsidir.

## Almaniya vətəndaşlarını Yaxın Şərqdən təxliyə etmək üçün min hərbçi göndərib



Almaniya Silahlı Qüvvələri (Bundesver) zərurət yaranacağı təqdirdə öz vətəndaşlarının Yaxın Şərqdən, ilk növbədə İsraildən təxliyəsini həyata keçirmək üçün Kipr və İordaniyaya minə yaxın hərbçi göndərib.

DPA agentliyi bu barədə Almaniyanın güc strukturlarındakı mənbələrinə istinadla məlumat yayıb.

Məlumata əsasən, almaniyalı hərbçilərin əksəriyyəti hazırda Kiprdədir. Orada mümkün təxliyə əməliyyatını koordinasiya etmək üçün qərargah formalaşdırılıb. İordaniyada isə xüsusi təyinatlı qüvvələr dislokasiya olunub.

Bir müddət öncə KİV-də Bundesverin Kiprə əlavə qüvvələr göndərdiyi barədə informasiya yayılıb. Onların dəqiq sayı barədə məlumat verilmir.

Qeyd edək ki, Almaniya hökuməti artıq İsraildən təxliyə reysləri həyata keçirməyə başlayıb. İndiyə qədər 3,5 minə yaxın almaniyalının təxliyə olunduğu bildirilir.

**AZƏRTAC-ın materialları əsasında**

*Fiziki hazırlıq*

# “Fiziki hazırlıqla məşğul olur, gücümüzə güc qatırıq”



Fiziki hazırlıq döyüş hazırlığının tərkib hissəsi olduğu üçün ordu sıralarında daim diqqət mərkəzində saxlanılan sahələrdən biridir. Məhz bu səbəbdən də təsdiq olunmuş günün nizam qaydalarına uyğun olaraq hərbi hissələrdə gündə iki dəfə bu məşğələ keçirilir. Şəxsi heyətin marağını daha da artırmaq məqsədilə yarışlar və estafetlər təşkil edilir, qalib olanlar mükafatlandırırlar.

"N" hərbi hissəsində fiziki hazırlıqlarını artıran əsgərlər diqqətimizi çəkdi. Müasir standarlara cavab verən idman şəhərciyində səliqə-sahman hökm sürürdü. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Pərviz Mirzəyevin nəzarəti altında əsgərlər güc və qüvvələrini artırmaq məqsədilə verilən bütün komandaları cəld və nöqsansız icra edirdilər. Məşğələnin gedişatına mane olmamaq üçün ona ayrılan vaxtın bitməsini gözlədik. Mövcud mənzərəni seyr etdikcə qürurlandıq. P.Mirzəyev bildirdi ki, Müdafiə Nazirliyinin rəhbərliyinin diqqət və qayğısı nəticəsində müasir standartlara uyğun salınan şəhərcikdə hərbi qulluqçularımızın idmanla məşğul olmaları üçün əlverişli şərait yaradıb. Bunun nəticəsidir ki, hərbçilərimiz iradəli, güclü və dözümlüdürlər. Məhz fiziki cəhətdən güclü olduqları üçün Vətən müharibəsində kilometrlərlə məsafəni yorulmadan qət edib, düşməni məğlub etdilər.

Söhbət əsnasında öyrəndim ki, P.Mirzəyev Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında başlayan və 44 gün davam edən Vətən müharibəsinin iştirakçısıdır. Haqq savaşımız zamanı aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Pərviz Mirzəyev Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib.

- Şəxsi heyət bütün dərs və məşğələlərdə olduğu kimi, fiziki hazırlıq məşğələsində də həvəslə iştirak edərək, yüksək nailiyyətlər əldə edir. Gördüyünüz kimi hər biri verilən komandaları sərbəst icra edə bilir. Yaradılmış şərait isə bizlərə imkan verir ki, əsgərlərimizə yüksək səviyyədə məşğələ keçərək, onları fiziki cəhətdən daha da möhkəm edək, - deyə məşğələ rəhbəri bildirdi.

Məşğələdən sonra əsgərlərlə də həmsöhbət olduq. Kəlbəcər rayonundan olan əsgər Tural Hüseynov idmanın sərbəst güləş növü ilə məşğul olub. Şəhər və rayonlararası keçirilən yarışlarda müxtəlif yerlərə layiq görülərək, diplomlar və medallarla təltif olunub. Söhbətimiz zamanı bildirdi ki, idmanın sağlamlıq üçün faydalarını saymaqla qurtarmaq mümkün deyil. “Müntəzəm məşq müalicəvidir və ömrü uzadır. Tibbi baxımdan desək, idman ilk növbədə bütün damar sistemini yaxşılaşdırır və orqanizmdə iltihab əleyhinə təsir göstərir. Həmçinin psixoloji baxımdan çox faydalıdır. Gərginliyi, narahatlığı, depressiyanı, əsəbiliyi və stresi azaldır. Daha sonra isə fiziki hazırlıqla məşğul olanlar gücünü artırır, dözümlü və iradəli olurlar. Məhz bu səbəblərə görə hərbi hissəmizdə fiziki hazırlıq məşğələsinə xüsusi önəm verilir. Peşəkar komandirlərimizin rəhbərliyi altında keçirilən məşğələdə hər birimiz həvəslə iştirak edir, idman çalışmalarını həvəslə yerinə yetiririk. Bu xüsusiyyətləri isə bizlərə aşılayan komandirlərimizə dərin minnətdarlığımızı bildiririk".

Əsgər Rusif Soltanov mülki həyatda idmanla məşğul olmadığını dedi: Lakin xidmətə başladıqdan sonra təcrübəli komandirlərimizin nəzarəti altında keçirilən fiziki hazırlığa olan həvəsim gündən-günə artmaqdadır. Hər hansı hərəkəti düzgün icra etmədiyim təqdirdə izah edib öyrədirlər. Bunun nəticəsidir ki, artıq bütün idman hərəkətlərinə dərindən yiyələnmişəm”.

- Hər birimiz regionun ən güclüsü və qalib Azərbaycan Ordusunun əsgəriyik. Mütəmadi olaraq keçirilən təlimlərlə döyüş hazırlığımızı, ictimai-siyasi hazırlıqla mənəvi-psixoloji vəziyyətimizi, fiziki hazırlıqla gücümüzü artırırıq. Bunların sayəsində hərbi sirlərə yiyələnib peşəkar döyüşçü kimi formalaşırıq. Bu gün bizim əsas məqsədimiz Ana Vətənimizin müdafiəsini yüksək səviyyədə təmin etməkdir. Bunun üçün əlimizdən gələni edəcək, lazım gələrsə, istənilən an canımızdan keçməyə hazırıq, - deyə əsgər Rəşad Mejlimov dedi.

**Kapitan**
**Orxan HÜSEYNLİ**
**"Azərbaycan Ordusu"**

# İdman

## İrina Zaretska növbəti dəfə dünya çempionu olub



Azərbaycan karateçisi İrina Zaretska (68 kiloqram) Macarıstanın paytaxtı Budapeştdə keçirilən dünya çempionatında qızıl medal qazanıb.

O, finalda İsveçrə təmsilçisi Yelena Quriç ilə üz-üzə gəlib. Rəqibinə 4:3 hesabı ilə qalib gələn Azərbaycan təmsilçisi üçqat dünya çempionu olub.

Qeyd edək ki, İrina Zaretska 2018 və 2021-ci illərdə keçirilən dünya çempionatlarında da qızıl medala layiq görülüb.

## Azərbaycan idmançısı İtaliyada dünya çempionu olub



Azərbaycan idmançısı Emil Nağıyev İtaliyanın Karrada şəhərində kunq-funun WTKA versiyası üzrə keçirilən dünya çempionatında qızıl medal qazanıb.

80 kiloqram çəki dərəcəsində çıxış edən Azərbaycan təmsilçisi Polşa və Ukraynadan olan rəqiblərinə qalib gələrək finala yüksəlib. O, həlledici döyüşdə italiyalı idmançı ilə üz-üzə gəlib. Rəqibini məğlub edən E. Nağıyev dünya çempionu olub.

Qeyd edək ki, Emil Nağıyev Daxili İşlər Nazirliyinin Polis Akademiyasının kursantı, polis sıravisidir.

## Azərbaycanın kunfu millisi dünya çempionatında 37 medal qazanıb



Azərbaycanın yeniyetmələr, gənclər və böyüklərdən ibarət kunfu millisi dünya çempionatında uğurla çıxış edib.

Gənclər və İdman Nazirliyi və Çin Döyüş Növləri Assosiasiyasının dəstəyi ilə mundiala yollanan yığma yarışı 37 medalla başa vurub. Onlardan 28-i qızıl, 6-sı gümüş, 3-ü isə bürünc mükafatdır.

Qeyd edək ki, yarış İtaliyanın Karrada şəhərində keçirilib.

## Azərbaycanın stolüstü tennisçiləri beynəlxalq yarışda 8 mükafat qazanıblar



Azərbaycan stolüstü tennisçiləri Latviyanın paytaxtı Riqada keçirilən "Riga City Council's Youth Cup" turnirini 8 mükafatla başa vurublar.

Yarışın son günündə Zemfira Mikayılova, Arzu Aslanova və Adil Əhmədzadə 19 yaşadək idmançılar arasında bürünc mükafat qazanıblar.

Rüstəm Hacılı isə təsəlliverici görüşlərdə turnirin xüsusi kubokuna layiq görülüb.

Qeyd edək ki, turnirin ilk günlərində keçirilən digər yaş qrupları üzrə yarışlarda Aylin Əsgərova qızıl, Adil Əhmədzadə və Tunar Bağırov gümüş, Xədicə Eylazova isə bürünc medala sahib çıxıb.

## Azərbaycan karateçisi Avropa çempionatında bürünc medal qazanıb



Azərbaycan idmançısı Sloveniyada keçirilən Avropa çempionatında üçrəngli bayrağımızı dalğalandırıb və Dövlət Himnimizi səsləndirib.

Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə xidmətinin əməkdaşı Orxan Süleymanov Karate IKU təşkilatının Sloveniyanın Novo Mesta şəhərində təşkil etdiyi Avropa çempionatında 80+ mütləq çəki dərəcəsində 3-cü yeri qazanaraq bürünc medala sahib çıxıb.

**AZƏRTAC-ın materialları əsasında**

# Albaniyada keçirilən dünya çempionatında MİK təmsilçisi gümüş medal qazanıb




Albaniyanın paytaxtı Tirana şəhərində keçirilən U-23 dünya çempionatında Mərkəzi İdman Klubunun (MİK) təmsilçisi Azərbaycan nümayəndə heyətinin tərkibində uğurla çıxış edib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, sərbəst güləş üzrə 79 kq çəki dərəcəsində mübarizə aparan MİK təmsilçisi Əşrəf Aşırov U-23 dünya çempionatının gümüş medalına layiq görülərək Azərbaycanın aktivinə 1 medal yazdırıb.

Qeyd edək ki, dünya çempionatında medal qazanan idmançımızın məşqçisi polkovnik-leytenant Nazim Əlicanovdur.

# Qarabağ bölgəsində kustar üsullarla hazırlanmış atəş qurğuları aşkar edilib





Qarabağ bölgəsində əraziyə baxış zamanı qeyri-qanuni erməni silahlı birləşmələrinə məxsus üç ədəd özüyeriyən artilleriya qurğusu aşkar edilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, bu zirehli texnika T-72 tankının mühərriki ilə təchiz edilmiş dartıcının üzərinə artilleriya topunun kustar üsulla quraşdırılması ilə hazılanmışdır.



Qeyd edək ki, bu qurğu 1951-ci ildə istehsal edilmiş mərmilərlə 17.5 km məsafəyə atəş açmaq imkanına malikdir.

Xankəndi-Şuşa istiqamətində yerləşən atəş mövqelərində aşkar edilmiş bu qurğuların lokal xarakterli antiterror tədbirləri zamanı qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən Şuşa şəhərini atəşə tutmaq məqsədilə istifadə edilməsi istisna deyil.

| Baş redaktorun müavini | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| mayor Məhəmməd NƏSİRLİ | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98; Məktublar şöbəsi: (012) 510-64-28. | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi | Bəxtiyar ƏLİYEV | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi Nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361 Sifariş № 629 Nüsxə 4752 |